# Azərbaycan postmünaqişə gündəliyinin formalaşmasında sülh çağırışlarına əsaslanır

***Bu gün postmünaqişə gündəliyinin formalaşmasında Azərbaycan öz sözünü deyir və bu söz həlledicidir. Amma bununla bərabər, biz heç bir qeyri-real tələb də irəli sürmürük. Biz deyirik ki, ərazi bütövlüyümüzü tanıyın, gəlin sərhədləri müəyyən edək, hərə öz ölkəsində yaşasın, bir-birinin işinə qarışmasın. Biz bunu deyirik və mənim tərəfimdən irəli sürülmüş sülh müqaviləsi üçün 5 əsas prinsipin mahiyyəti də budur. O cümlədən, bir-birinə qarşı ərazi iddialarından əl çəkmək prinsipi də böyük önəm daşıyır və Ermənistan rəhbərliyi bu 5 prinsipi qəbul edib.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**



***Azərbaycan İkinci Qarabağ müharibəsini tarixi zəfərlə başa vuraraq regionda yeni reallıqlar yaradıb. Vətən savaşından əvvəlki dövrdə ölkəmizi "Ermənistanın qələbəsi gerçəkliyini" qəbul etməyə çağıran bəzi beynəlxalq təşkilatlar və dövlətlər də bu yeni reallıqla barışıblar. Bunu Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb. Artıq beynəlxalq aləmdə Azərbaycanın yaratdığı yeni reallığı çoxları qəbul edib. Bu, vəziyyəti, əlbəttə, Azərbaycan liderinin apardığı uğurlu xarici siyasət şərtləndirib.***

Prezident İlham Əliyev mayın 27-də Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimindəki çıxışında bu məqama toxunub, eyni zamanda, müstəqilliyimizin möhkəm olduğunu və bunun nəticəsində düşməni diz çökdürərək İkinci Qarabağ müharibəsində tarixi qələbə qazanıldığını bildirib. Dövlətimizin başçısı deyib: "Biz müstəqilliyimizin möhkəmlənməsi istiqamətində çox böyük işlər görmüşük. Siyasi cəhətdən tam müstəqilik. Heç bir ölkə bizim iradəmizə təsir edə bilməz və bunu artıq hər kəs bilir ki, Azərbaycanla hesablaşmaq lazımdır, Azərbaycanın mövqeyini nəzərə almaq lazımdır. Azərbaycan özünə hörmət edən dövlətdir və hər kəsdən bu hörməti tələb edir və bunu əldə edir".

Ölkə rəhbəri nitqində respublikamızın iqtisadi cəhətdən də müstəqil olduğunu, heç kimdən asılı vəziyyətə düşmədiyini, öz həyatımızı özümüz qurduğumuzu və heç bir yardıma, heç bir kreditə ehtiyac duymadığımızı xatırladıb. Dövlət başçısı fikrini davam etdirərək, əksinə, Azərbaycanın hazırda bəzi ölkələrə kreditlər verdiyini diqqətə çatdırıb.

Prezident İlham Əliyev çıxışında xalqımızın siyasi və iqtisadi müstəqilliyə qovuşması nəticəsində Azərbaycanın qədim ənənələrə, dəyərlərə əsaslanaraq qurduğu dövlətdə bu gün rahat, dinc yaşayışın mövcudluğunu vurğulayıb. "Əlbəttə, biz müstəqil olmasaydıq, yəni, sözün əsl mənasında, müstəqil olmasaydıq, erməni işğalına son qoya bilməzdik. Çünki bu işğalı şərtləndirən hansı amillər olub, əlbəttə ki, xarici amillər. Ermənistan özü nə hərbi, nə siyasi, nə iqtisadi cəhətdən hətta orta səviyyəli dövlət sayıla bilməz. İndi Ermənistandakı vəziyyət göz qabağındadır. Əlbəttə, biz bu xarici amilləri nəzərə almalıyıq. Amma, eyni zamanda, bu, bizi dayandıra bilməzdi...".

***(ardı 3-cü səhifədə)***

# Azərbaycan postmünaqişə gündəliyinin formalaşmasında sülh çağırışlarına əsaslanır

*(əvvəli 1-ci səhifədə)*



Onu da xatırladaq ki, dövlətimizin başçısı savaş dövründə Ermənistana işğal etdiyi ərazilərmizdən qeyd-şərtsiz çıxandan, yaxud bununla bağlı tarix bildirəndən sonra Vətən müharibəsini dayandıracağı mesajını verirdi. Bu, əlbəttə, bir tərəfdən Azərbaycanın güclü iradəsi, hərbi qüdrəti ilə bağlı idisə, digər tərəfdən ölkəmizin müstəqil siyasət aparmasından irəli gəlirdi. Digər tərəfdən, döyüşlər getdiyi müddətdə Azərbaycana güclü təhdidlər, təzyiqlər göstərilirdi. Ermənistan ordusu döyüş bölgəsindən kənar yaşayış məntəqələrimizi ağır silahlardan atəşə tutmaqla genişmiqyaslı dağıntılar törədir, dinc sakinlərin həyatlarına son qoyurdu. Ancaq bunlar ölkəmizi haqq yolundan, ədalət savaşından çəkindirmirdi. Çünki dövlətimizin başçısının qeyd etdiyi kimi, Azərbaycan Ordusu haqq mübarizəsi–tapdaq altındakı torpaqlarımızın düşməndən təmizlənməsi, ərazi bütövlüyümüz uğurunda müharibə aparırdı. Bir sözlə, Prezident İlham Əliyevin rəhbərliyi ilə müzəffər silahlı qüvvələrimiz güclü iradə, əzm, qəhrəmanlıq, xalqımız isə birlik, həmrəylik, milli qürur, ləyaqət nümayiş etdirirdi.

Ölkə rəhbəri "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimindəki çıxışında Vətən müharibəsindən ötən müddətdə regionda yaranan geosiyasi vəziyyətə də toxunaraq, Azərbaycanın postmünaqişə gündəliyinin formalaşmasında sülh çağırışlarına əsaslanıldığını diqqətə çatdırıb. Dövlətimizin başçısı deyib: "Biz Dağlıq Qarabağ münaqişəsini həll etmişik. Dağlıq Qarabağ münaqişəsi həll olunub. Qaldı ki, Dağlıq Qarabağ inzibati ərazisinə, bu ərazi Azərbaycan ərazisində yoxdur. Ona görə beynəlxalq qurumların leksikonunda Dağlıq Qarabağ sözü yoxdur və son Brüssel görüşü bunu bir daha göstərdi. Düzdür, Ermənistanda indi bu məsələ ilə bağlı yenə də hay-haray qaldırıblar və necə deyərlər, başlarını divara vururlar, amma bu, reallıqdır və onlar bu reallıqla barışmağa məcburdurlar".

Ölkə rəhbəri həmin nitqində keçmiş Dağlıq Qarabağ münaqişəsinin həlli ilə Minsk qrupunun da öz fəaliyyətini başa vurduğunu bir daha bildirib. Yeri gəlmişkən, dövlətimizin başçısı haqlı olaraq dəfələrlə Qarabagın işğaldan azad olunmasına Azərbaycan siyasətində hər zaman prioritet istiqamət kimi yanaşıldığını qeyd edib. Həmçinin münaqişənin həllinə məsul ATƏT-in Minsk Qrupuna böyük ümidlər baglansa da, gözləntilərin özünü dogrultmadığını söyləyib. Prezident İlham Əliyev, həmçinin həmsədr ölkələr tərəfindən İkinci Qarabağ müharibəsinə qədər 28 il ərzində adı çəkilən təsisatın təmsilçiləri Azərbaycana və Ermənistana çoxsaylı səfərlər etsələr də, vəziyyətin müsbətə doğru dəyişmədiyini vurğulayıb.

Bütün bunlara baxmayaraq, münaqişə hərbi yolla heç bir dəstək, yardım olmadan aradan qaldırıldı, xalqımız tarixi ədaləti bərpa etdi və Minsk Qrupunun uzun bir müddətdə reallaşdıra bilmədiyi haqq-ədaləti Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 günə gerçəkləşdirdi. Bununla Azərbaycan güclü dövlət, böyük xalq olduğunu bütün dünyaya göstərdi, müharibədən sonra isə Cənubi Qafqazda və eləcə də, qlobal arenada yeni reallıqların əsasını qoydu.

Qeyd etmək yerinə düşər ki, möhtəşəm zəfərimizdən sonra dünya Azərbaycana çox böyük maraq göstərir. Ölkəmizdə biznes əlaqələri yaratmaq istəyi ifadə olunan müraciətlər getdikcə artır. Bu, eyni zamanda, dünyada Azərbaycanın nüfuz göstəricisinin bariz nümunəsidir. Hazırda iqtisadiyyatımız sürətlə inkişaf edir, dayanıqlıq təmin olunur, əlverişli biznes mühiti, saglam rəqabət və sabitlik ölkəmizə göstərilən maragı şərtləndirir.

Bu gün işğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzur postmünaqişə dövrünü yaşayır. Bu mərhələnin gündəliyini dövlətimizin başçısının vurğuladığı kimi, Azərbaycan diktə edir, ölkəmiz müharibədən keçən ilyarım ərzində nəyi istəyirsə, ona da nail olur. Bütün dünya, aparıcı ölkələr və beynəlxalq təşkilatlar tərəfindən yeni reallıqlar qəbul edilir. Bu, Azərbaycanın çox böyük siyasi uğurudur. Respublikamızın gündəliyi artıq aparıcı beynəlxalq təşkilatlar tərəfindən də əsas kimi götürülür. Bütün bunlarla bağlı Prezident İlham Əliyev Ağalı kəndində keçirilən mərasimdəki nitqində diqqətə çatdırır: "Mən demişdim ki, biz Ermənistanla sərhədləri müəyyən etməliyik. Ermənistan bundan imtina edirdi, ilyarım imtina edirdi. Amma nəticə nə oldu? Mayın 24-də Azərbaycan–Ermənistan sərhədində komissiyaların birinci görüşü keçirildi. Bunun çox böyük mənası var. Həm o nöqteyi-nəzərdən ki, biz bu sərhədləri müəyyən edəcəyik və bu, çox vacibdir. Çünki ermənilər o sərhədləri də zəbt etmişlər. Digər tərəfdən bu, avtomatik olaraq Ermənistanda revanşist, faşist qüvvələr tərəfindən Azərbaycana qarşı irəli sürülən ərazi iddialarına da rəsmən son qoyur. Çünki əgər biz sərhədləri müəyyən ediriksə, hansı dırnaqarası "Dağlıq Qarabağ" statusundan söhbət gedə bilər?! Qarabağ zonası var, Qarabağ diyarı var. Bu, Azərbaycan ərazisidir və bütün dünya bunu qəbul edir. Ona görə Azərbaycan–Ermənistan sərhəd delimitasiyası üzrə komissiyaların birinci iclasının çox böyük əhəmiyyəti var".

Bəli, Azərbaycanın ötən müddətdə beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunan sülh gündəliyi, bu istiqamətdə təşəbbüsləri hazırda Cənubi Qafqazda regional inkişaf üçün yeni imkanlar yaradıb. Ermənistan isə ölkəmizin sülh müqaviləsinin imzalanması üçün təklif etdiyi 5 prinsiplə razılaşıb və belə bir hal bu respublikanın Azərbaycanın sülh və əməkdaşlıq çağırışlarına müsbət cavab verməsini şərtləndirib. İşğalçı ölkə Azərbaycanın sülh çağırışına müsbət yanaşmadan başqa yolu qalmadığını, belə təqdirdə həm Cənubi Qafqazda sabitliyin uzunmüddətli və dayanıqlı olacağını, həm də xalqının düşdüyü sosial-iqtisadi böhrandan xilas ediləcəyini yaxşı anlayıb.

Prezident İlham Əliyev postmünaqişə dövründə Cənubi Qafqazın siyasi arxitekturasını şərh edərkən, gələcəkdə bütün istiqamətlər üzrə inteqrasiya və inkişafın, xüsusən də uzunmüddətli sülh və təhlükəsizliyin yaradılmasının vacibliyini dəfələrlə bildirib. Bunun üçün Azərbaycan təkliflərlə çıxış edib və bu təkliflər Ermənistanın kapitulyasiyası hesab olunan 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatda da öz ifadəsini tapıb. İndiki mərhələdə də iki dövlət arasında münasibətlərin normallaşdırılması ilə bağlı gündəliyi dövlətimizin başçısı müəyyənləşdirib.

Azərbaycanın yaratdığı yeni reallıqlarda, regionda münasibətlərin normallaşdırılması prosesində diqqətçəkən başqa bir məqam vasitəçiliklə bağlı missiyanın dəyişməsi, yeni formatın yaranmasıdır. Artıq bu missiyanı Avropa İttifaqı üzərinə götürüb. Bu beynəlxalq qurum regional əməkdaşlıq səylərində iştirak etməyi, dayanıqlı sülh və rifah naminə region ölkələri arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsini qarşıya əsas vəzifə kimi qoyub. Ədalət naminə deyək ki, indiyədək bu prosesdə ikili standartlara, beynəlxalq hüququn tapdalanmasına yer verilməsi nəzərə çarpmayıb. Yeri gəlmişkən, Azərbaycanın yaratdığı yeni reallıqlar nəticəsində yuxarıda xatırlatdığımız kimi, Minsk Qrupu da artıq tarixin arxivinə göndərilib.

Hazırda Azərbaycanın qarşısında duran əsas vəzifələrdən biri ölkəmizin Vətən müharibəsində parlaq qələbə nəticəsində işğaldan azad edilən ərazilərinin respublikanın ümumi iqtisadiyyatına reinteqrasiyasına, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmasına nail olmaqdır. Bu isə yaxın gələcəkdə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşmasını, eləcə də Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın bölgə iqtisadiyyatının ümumi arxitekturasının müəyyənləşdirilməsini reallaşdırmaq deməkdir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***